Kredo

Müstəqil ictimai-siyasi, publisistik qəzet | № 23 (911) 28 sentyabr 2018-ci il | Qiymәti 1 manat | Qəzet 1999-cu ilin oktyabrından çıxır

Azərbaycan Milli Kitabxanası

MİLLİ TARİX ELMİ MÜQƏDDƏSDİR

ONU DƏRK ETMƏK ÜÇÜN Ə.ABİD, M.Ə.RƏSULZADƏ... MƏNİMSƏNİLMƏLİDİR

Xəliyəddin XƏLİLLİ

Hələ tələbəlik illərindən "Kitabi-Dədə Qorqud" dastanını ilk oxuduğum gündən ruhumda dastan haqda məqalə yazmaq arzusu baş qaldırdı. Dastanı hər dəfə oxuyanda uşaqlıq illərində dinlədiyim yaşlıların xatirəsinə çevrilmiş yaşadığım elat mühitinin ilğımları qəlbimdə baş qaldırır, ruhumu lərzəyə salırdı. Gözlərim önünə kommunist Rus imperiyasının xalqımızı məhkum etdiyi rəzil həyata qarşı sanki sönməkdə olan ocaq başında oturub əlindəki çubuqla kül içərisindəki közləri seçən nurani Dədə Qorqud gəlir və üzünü bizə tutub deyirdi: "Bu nə həyatdır yaşayırsınız, mənliyi əlindən alınmış, qürur, şərəf və ləyaqəti unutmuş yaşam insan həyatı ola bilməz. Babalarınızın mənliyi, ləyaqəti, şərəfi, qüruru, mənliyi, əyilməzliyi, dönməzlik, sözə və əhdə vəfanı yaşam qanununa çevirməsi haqqında sizə saxladığım kitabı nəyə görə oxuyub mənimsəmirsiniz? Yoxsa əbədi kölə olmaq yolu seçmisiniz? - kədərlə, intizar dolu baxışlarla üzümə baxırdı.

Beləcə hər dəfə oxuyanda "Kitabi-Dədə Qorqud" dastanı qəlbimdə azadlıq ruhunu alovlandırır, bu yolda məni üsyana çağırırdı. Lakin "Kitabi-Dədə Qorqud" dastanından əxz etdiyim bu real ideya, duyğu və hissləri yazıda ifadə edə bilmirdim. Niyə? (Bu yazdıqlarım Ə.Dəmirçizadə və H.Araslıdan başqa "Kitabi-Dədə Qorqud" dastanından yazanların hamısına aiddir). "Kitabi-Dədə Qorqud dastanından Rus imperiyası və onların azərbaycanlı yetişdirmələri akademik, elmlər doktoru, professor, Əməkdar elm xadimi kimi yüksək rütbəli və təltifli alimlərlə baxışlarım ziddiyyət təşkil edirdi. Ən faciəlisi bu idi ki, bu yüksək rütbəli "alim"lər tarix elmini minimum səviyyədə anlayacaq hər kəsin dərk edə biləcəyi dastanın yaranma tarixini tapmacasayaq bir vəziyyətə salmışlar. Sovet dönəmində, 60-70-ci illərdə buna qarşı çıxmaq və nəşr olunmaq tarix elminin qanunlarını bilən, milli mənlik şüuruna malik yüksək rütbəli alimlər üçün mümkün idi, məlum olduğu üzrə belə bir şəxsiyyət meydana çıxmadı, lakin mənim imkanım xaricində idi.

Mərhələlərlə, müxtəlif üsullarla Azərbaycan xalqını tarix səhnəsindən silmək siyasəti həyata keçirən kommunist Rus imperiyası XX əsrin 80-ci illərində mənlik şüurundan, milli-mənəvi dəyərlərdən məhrum edib kütlə halına saldığı əhalini fiziki məhvetmə və kütləvi yurdundan didərgin salmaqla varlığına son vermək üçün növbəti fəaliyyətə keçdi. Bu zaman milli ruhumuzun təməl əsaslarını qoruyub yaşadan "Kitabi-Dədə Qorqud" isti - həyatverici nəfəsi ilə cismində Azadlıq ruhunun zərrələri hələ sona qədər ölməmiş Azərbaycan türklərinin qəlbini İlahi -Mütləq ruhdan aldığı hərarətlə alovlandırdı, onların mənlik, ləyaqət, şərəf, qürur, vətən hisslərini alovlandıraraq, kütləvi səfərbər edib Bəşərin ilk Türk yurdunda Türk ocağını sönməkdən xilas etdi. Sətirlərin müəllifi bu mübarizlərin ilk cərgəsində idi.

Azərbaycanda az da olsa "Kitabi-Dədə Qorqud"un Azərbaycan türklərinin mənəviyyatının təməl əsası olmaqla onun milli mənlik şüurunu, ruhunu oyandırıb və canlandırdığını dərk edən ziyalı az da olsa var idi. Onlar arasında yazıçı Anar birinci idi. Təsadüfi deyil ki, bu həqiqəti "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyində xüsusi vurğulayan H.Əliyev demişdir: "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi, "Dədə Qorqud ensiklopediyası"nın nəşri ideyası da Anara məxsusdur". Yazıçı Anarın təklifi və təqdimatını əsas götürən prezident H.Əliyev "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin keçirilməsi haqqında 20 aprel 1997-ci il tarixdə fərman verdi. Yubiley 8 aprel 2000-ci il tarixdə keçirildi. 8 aprel Dədə Qorqud günü elan olundu. Yubiley çox yüksək səviyyədə keçirildi. 1991-ci ildən başlayan Azərbaycanın yeni müstəqilliyi dövründə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi qədər tarixi, milli-mənəvi dəyərlərə qovuşma istiqamətində təsiredici ikinci bir tədbir, hadisə görməmişəm. Yubiley tədbiri 2000-ci ilin 8 aprelində keçirildi və bu gün "Dədə Qorqud" günü elan edildi. 2001-ci ilin 8 aprelindən hər ilin bu günü AMEA Folklor İnstitutunda "Kitabi-Dədə Qorqud" dastanına həsr olunmuş konfrans və digər tədbirlər keçirilir, mətbuat bu mövzuya vaxt və yer verir.

"Kitabi-Dədəd Qorqud" dastanının 1300 illiyinə həsr olunmuş konfranslarda müxtəlif baxış bucağında çoxsaylı məruzə və çıxışlar dinlənildi. Təbii ki, bunların hamısı eyni elmi səviyyədə və ruhda deyildi. Əsas uğur ondan ibarətdir ki, dastana elmi baxışın səviyyəsi müəyyənləşdi, dərki və mənimsənilməsi dərinləşdi. AMEA Folklor İnstitutunda "Dədə Qorqud" şöbəsinin yaradılması və ona Dədə Qorqudsevər, millətpərvər və elmin müqəddəsliyinin qorunmasında ciddiliyi ilə həmişə fərqlənmiş akademik Tofiq Hacıyevin rəhbər təyin olunması qorqudşünaslığın elmləşməsi və inkişafında bir mərhələ kimi fərqlənəcəyi mənim inamımdır.

"Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi münasibətilə nəşr olunan "Kitabi-Dədə Qorqud ensiklopediyası"nın I cildinə ön sözdə H.Əliyev yazır: "Biz ötən dövrdə tariximizi özümüz istədiyimiz kimi yaza bilməmişik. Tariximizin, o cümlədən, ədəbiyyat, mədəniyyət tariximizin həmişə ideologiya təsiri altında qalması, bu barədə bizim sərbəst olmamağımız vaxtı ilə belə böyük itkilərə gətirib çıxarmışdır. Odur ki, bu yubileyin əsas mənası və məqsədi zəngin tariximizin hər bir səhifəsini açmaq, geniş tədqiq etmək, onu xalqımıza və dünyaya təqdim etmək və beləliklə də əsrlər boyu tarixşünaslıq nöqteyi-nəzərindən itirdiklərimizi bərpa etməkdir. Bunun üçün Dədə Qorqudun öyrənilməsi yubileyi bitməməli, ardıcıl davam etməlidir".

Milli həyatımızın gələcəyi üçün "Kitabi-Dədə Qorqud" dastanındakı ideyaların rolu və funksiyasının obyektiv qiymətləndirilməsinin zəruriliyini dərk etmək üçün bu fikirlərin əlavə izahata ehtiyacı yoxdur.

Yubiley obyektiv olaraq "Kitabi-Dədə Qorqud" dastanını dilimizin, mənəviyyatımızın, bütünlüklə mədəniyyətimizin əsası, "Ana kitabı" kimi dəyərləndirdi və elan etdi. Lakin dastanın yaranma tarixinə yanaşmadakı qeyri-elmlik, qeyri-obyektivlik, müasir tarixçilərimizin, onların yaratdıqları tarixşünaslığın etnosun yaranma və yaşam qanunlarını, etnososial inkişaf mərhələlərinə müvafiq sosial təbəqələr və həyat tərzi, idari təsisatları, inam, etiqad və dini ideoloji mənəvi sistemləri, onların qarşılıqlı münasibətlərini və birgə yaşama mümkünlüyü dərəcəsini təsəvvür edə bilməməsi buna imkan vermədi. Çünki, akademik Z.Bünyadovun düzgün müəyyən etdiyi kimi, 1920-ci il 27 aprel işğalı ilə Azərbaycanda başlayan "qırmızı terror"la 1937-1938-ci illərdə "70-80 min Azərbaycan ziyalı nümayəndəsi - alim, yazıçı, aktyor, müəllim, gənc, din xadimi, Sovet və partiya idarəsi əməkdaşı, hərbçi - bir sözlə bütün düşünən beyinlər, qeyri-adi təfəkkür sahibləri bir ucdan məhv edildilər". B.Çobanzadə, A.Qubadulin, V.Xuluflu, S.Mümtaz, Ə.Abid və b. "xalq düşməni" adı ilə güllələnərək məhv edildilər. Respublika elmi başsız qaldı və elmdə varislik əlaqəsi pozuldu. Elmin və milli ziyalıların yerinə "xüsusi xidmət orqanlarının əməkdaşları", "elmi-nəzəri təfəkkürdən məhrum", "mexaniki düşüncə qabiliyyətinə malik", "milli ruhdan məhrum", "ancaq özünü düşünən"lər cəlb edilməklə "respublikada ictimai elmlərin yaradıcı inkişafına böyük ziyan və dağıdıcı zərbə vurmağa hazır olan könüllü və yetişdirilmiş apologetlər" yaratdılar. K.Marksın "İnsanlar öz həyatının ictimai istehsalında öz iradələrindən asılı olmayan müəyyən, zoruri münasibətlərə - öz maddi məhsuldar qüvvələrinin inkişafının müəyyən pilləsinə uyğun olan istehsal münasibətlərinə girirlər. Bu istehsal münasibətlərinin məcmuyu cəmiyyətin iqtisadi strukturunun real bazisini təşkil edir, hüquqi və siyasi üstqurum bu bazis üzərində yüksəlir və müəyyən ictimai şüur formaları bu bazisə uyğun gəlir. Milli həyatın istehsal üsulu, ümumiyyətlə, həyatın sosial, siyasi və mənəvi prosesləri üçün şərtdir. İnsanların varlığını onların şüuru müəyyən etmir, əksinə, insanların ictimai varlığı onların şüurunu müəyyən edir" saxta, qeyri-elmi müddəalarını "yəhudi xiliaizmi"nə çevirib təhsil, mətbuat, və s. üsullarla şüurlara yeritməklə sosialist düşərgəsində proletar-muzdur şüurunu hakim ideologiyaya çevirməklə etnik-milli inkişafın qanun və qanunauyğunluqlarını dərkedilməz etdilər. Elə bu səbəbdən də mərhum akademik Z.Bünyadovun sözləri ilə desək, Azərbaycan sovet tarixçilərinin əsərləri "Biləcəridən" keçə bilmədi. Təsadüfi deyil ki, kommunist Rus imperiyasının hakimiyyəti illərində "Kitabi-Dədə Qorqud" dastanını nəşr edib xalqın istifadəsinə vermək uğrunda ancaq dilçi və filosoflar mübarizə aparıb, repressiyaya məruz qalmışlar. Bu mübarizədə bir nəfər də olsun azərbaycanlı tarixçi iştirak etməmişdir. "Kitabi-Dədə Qorqud" dastanı haqqında ilk tarixçi məqaləsi 1977-ci ildə yazılmış, bu da iqtibaslarla ədəbiyyatçıların təkrarından başqa bir şey deyildir. Müstəqilliyə qədər üç azərbaycanlı tarixçinin səkkiz məqaləsi nəşr olunmuşdur. Y.Mahmudovun 1996-cı ildə nəşr olunan bir kitabında dastana 6 səhifəlik bir paraqraf həsr olunmuşdur. Təsadüfi deyil ki, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyində cəmi dörd nəfər tarixçi iştirak etmişdir. Qəzənfər Rəcəbli istisna olmaqla hər üçünün məqaləsi ədəbiyyatçıların əsərlərindən iqtibasdan başqa bir şey deyildir.

"Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi zamanı dastanın qəbilə-tayfa zamanında, feodalizmdən əvvəlki dövrdə, VIII-XI, XI-XII-IX-XII əsrlərdə yaranması mülahizələri mövcud idi. Dilçilərdən E.Əlibəyzadə dastanın girişindəki "Rəsul əleyhissəlam zamanına uyğun Bayat boyundan, Qorqut ata diyərlər, bir ər qopdu. Oğuzun ol kişi təmam bilicisiydi, - nə diyərsə, olurdu. Qaibdən dürlü xəbər. Həq təala onun könlünə ilham edərdi..." sözlərini əsas tutub, dastanın VI-VII əsrlərdə yaranması iddiası ilə çıxış edirdi. "Kitabi-Dədə Qorqud" dastanının yubileyinin keçirilməsi təşəbbüskarı yazıçı Anar da bu informasiyanı əsas götürərək H.Əliyevə təqdimatında dastanın VII əsrdə yazıldığını bildirir. Beləliklə, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin keçirilməsinə qərar verilir. Dastanın ilk tədqiqatçısı H.F.Ditsin "Homerin eramızdan əvvəl VIII əsrdə yaratdığı poemasına "Kitabi-Dədə Qorqud"un təsiri, ingilis qorqudşünası C.Lüisin "Bu dastanların tarixi çox qədimdir. İslam tarixindən xeyli əvvəl yaranmışdır" elmi mülahizələri, dastanın yaranma tarixi haqqında yuxarıda bəhs etdiyimiz digər mülahizələrin üstündən sükutla keçirdi. Maraqlıdır, "Kitabi-Dədə Qorqud" dastanının yaranma tarixi haqqında mülahizəsi olan, dünyasını dəyişmiş tədqiqatçılar istisna edilərsə, dastanın yaranması "IX-XII əsrlərə uyğundur" və digər fərqli mülahizələrlə çıxış etmiş "alimlər"dən bir nəfər də olsun əvvəlki mülahizəsini müdafiə edən olmadı. Yubiley yekdilliklə "Kitabi-Dədə Qorqud" dastanını Azərbaycan xalqının dilinin, mənəviyyatının, bütövlükdə mədəniyyətinin əsası - "Ana kitabı" elan etdi.

"Ana kitab" nə deməkdir?

Hər bir toplumun etnik mənlik şüuruna malik etnos olaraq tarix səhnəsinə çıxması ilə yaratdığı ilk qəhrəmanlıq dastanı onun Ana kitabıdır. Antropogenez zonasında paleolit dövründən başlayaraq bütün arxeoloji dövrlərdə varislik əlaqəsi fasiləsiz davam edən, ilkin təməlində inkişafını davam etdirən, e.ə. IV minilliyin sonlarında etnik mənlik şüuruna malik etnos olaraq tarix səhnəsinə çıxmış, fasilə hiss olunmayacaq sürətlə Aratta, Lullubu, Kuti, Kassi ilkin dövlət qurumların, bunun ardınca Manna, Midiya, Atropaten və Albaniya dövlətlərini yaratmış bir xalq "Ana kitabı"nı əsarətə düşdüyü VII əsrdə deyil, ilkin etnik mənlik şüuru ilə tarix səhnəsinə çıxdığı çağda yaratmalıdır və yaratmışdır. Bu "Ana kitab" - "Kitabi-Dədə Qorqud" dastanıdır, bu tarix "Kitabi-Dədə Qorqud" dastanında bütün aydınlığı ilə ifadə olunmuşdur. Azərbaycan türklərinin "Ana kitabı" kimi qiymətləndirilən "Kitabi-Dədə Qorqud" dastanının özündə aydın görünən bu tarixin düzgün müəyyən edilməməsinin obyektiv və subyektiv səbəbləri var.

(Davamı 4-cü səhifədə)

MİLLİ TARİX ELMİ MÜQƏDDƏSDİR,

ONU DƏRK ETMƏK ÜÇÜN Ə.ABİD, M.Ə.RƏSULZADƏ... MƏNİMSƏNİLMƏLİDİR

(Əvvəli 1-ci səhifədə)

Göründüyü kimi, "Kitabi-Dədə Qorqud" dastanının Azərbaycan xalqının dilinin, mənəviyyatının, ümumən mədəniyyətinin təməl əsası "Ana kitabı" kimi qiymətləndirilsə də, dastanda bu qiymətin əsaslarını verən mənəvi-sosial əsaslar açılmadı. Çoxlu sual dolu məsələlər cavabsız qaldı ki, bu da təbii ki, "Kitabi-Dədə Qorqud dastanının "Ana kitab" qiymətinə kölgə salan, şübhə doğuracaq. Dastana "Ana kitab" dəyərini bütövlükdə əsaslandıran yeganə məruzə etnoqraf Q.Rəcəblinin çıxışı idi ki, onun da üzərindən sükutla keçildi. "Kitabi-Dədə Qorqud" dastanının Azərbaycan xalqının "Ana kitabı" qiymətinə layiq olduğunu sübut etmək üçün elmi cavabını tapmayan mənəvi-ideoloji və sosial əsaslar və suallardan bir neçəsini diqqətə çəkirik:

a) Orta Asiya oğuznamələrində və digər folklor əsərlərində haqqında bəhs olunan, eyni hikmətləri söyləyən ən qədim dövrün ölümdən qaçıb gizlənmək istəyən Dədə Qorqud, Dərbənddə, Kərkükdə, Qazaxıstanda, Sırdarya boyunda dəfn olunan Dədə Qorqudlarla XVI əsrdə ləzgiləri İslam dininə dəvət edən, ayrı-ayrı dövrlərdə türk sultanlarının vəziri olmuş və b. Dədə Qorqudların "Kitabi-Dədə Qorqud" dastanındakı Dədə Qorqud ilə əlaqələri varmı, varsa bu bağlılığın kökü hardadır?

b) "Kitabi-Dədə Qorqud" dastanında farslar və ərəblər xatırlanmadığı halda, dastana 136 fars, 350-yə yaxın ərəb sözü necə daxil olub?

c) dastanda "padşah" "vəzir", "xanlar xanı", "bəylər bəyi", "çavuş" kimi dövlətçilik terminləri işlədilsə də, əsərdə bu terminlərlə ifadə olunan və ümumiyyətlə bir dənə də olsun dövlət təsisatı yoxdur?

d) dastanda oğuzların döyüş öncəsi "arı sudan abdəst aldılar. Ağ alınların yerə qoydular. Ekü ürkət namaz qıldılar. Adı görklü Məhəmmədə salavat götürdülər" döyüşə girdilər, düşmənə qələbə çalıb "kafərin kəlisanın yıqdılar" yerinə "məscid qurdular" deyilsə də, dastanda bir dənə də fərdi və ya kollektiv namaz və ya İslam dini mərasimi, məscid və ya kilsə təsvir olunmamışdır. Oğuz eli igidlərinin nümunəsi Beyrəyin dəfn mərasimi bütün çaların ilə oğuz adətincə keçirilir, İslam dininin hər hansı elementi bu mərasimdə xatırlanmır. Oğuzların hərbi yürüşlərə hazırlıq və s. məclislərində həmişə şərabdan istifadə edilir, şərabın istisi alınlarına çıxana qədər içirlər, hətta Bayındır xanın məclisində? Oğuzların məclislərində, mərasimlərində İslam adət-ənənəsinin hər hansı ünsürünə rast gəlinmir. Dastanda dəfələrlə süfrə, yemək məclisinin şahidi oluruq, bir dəfə də olsun İslam qanunu ilə "bismillah"la açılıb "əlhəmdullah"la yekunlaşmır, əksinə, məclislərdə "al şərabın istisi başa vurur" boylar yumla yekunlaşır. İslamın dastana daxil olma dövrü, səbəbi, iki zidd baxışın qovuşdurulma üsul və məqsədi cavabsız qalır?

e) heç bir feodal və dövlətçilik münasibəti olmadığından, ona istinad edilməyən "Kitabi-Dədə Qorqud" dastanının müasir Azərbaycan tarixçi və hüquqşünaslarının süni olaraq feodalizm dövrü dastanı olmasını "əsaslandırmağa" cəhdinin səbəbləri?

Bütün bu dolaşıqlıqlar, xəyanətlər varislərin Dədə Qorqud ruhuna qovuşmaq arzusunu öldürə bilmirdi. "Kitabi-Dədə Qorqud" oğuzların əcdadlarının ilkin yaradıcılıq ruhudur. Yaradıcılıq ruhu özlüyündə İlahi - Mütləq ruhun fərdlərin, toplumların qəlbində nurudur, zərrəsidir, zəka şüasıdır. Min illərdir rəqibləri, düşmənləri oğuzları məğlub etmək üçün "Kitabi-Dədə Qorqud"a calaqlar etməklə onun ruhunu öldürməklə oğuzu məğlub etmək siyasəti yeritsə də, əcdadların Mütləq ruhdan aldığı yaradıcılıq ruhu zərrə-zərrə oğuzların gələcəyə gedən yolunu işıqlandırmaqdadır. İki yüz illik rus əsarətini mənən zəiflətdiyi Azərbaycan xalqının "Kitabi-Dədə Qorqud"un "Ana kitab" olmasını duyan kimi bu qığılcım yubiley iştirakçılarından Q.Rəcəblinin qəlbini nurlandırmaqla zəifləmiş varislərin əcdadlara doğru yoluna işıq saldı. O, Dədə Qorqudun keçdiyi yolu, zamanı göstərəcək müqəddəs elmi əsaslarla yazır: "Azərbaycan oğuzları ? müstəqil etnik birlik kimi çıxış edirlər. Onların qəbilə ictimai münasibətlərinə və hərbi demokratiyaya əsaslanan dövlətləri (formalaşırdı? X.X.) vardı. "Kitabi-Dədə Qorqud"dakı Azərbaycan oğuzları nə Manna, nə də Midiya dövlətləri, nə Əhəmənilərin, və Makedoniyalı İsgəndərin hakimiyyətləri, nə Atropatcn və Alban dövlətləri, nə Azərbaycan? Parfiya rəqabəti, nə Sasanilərin işğalları, nə ərəb istilaları haqqında təsəvvürləri yoxdur. "Kitabi-Dədə Qorqud"da İslamın təsiri hiss edilmədiyi kimi, xristianlıq və Zərdüştilikdən də əsər-əlamət yoxdur". Q. Rəcəblinin dediklərinə əlavə olaraq bildiririk ki, "Dədə Qorqud" oğuznamələri yarandığı dövrdə tarix səhnəsində nə erməni (hay), nə də Ermənistan vardı. Arqumentlərindən göründüyü kimi, Q.Rəcəbli "Kitabi-Dədə Qorqud" dastanının Azərbaycan xalqının "Ana kitabı" olmasını etnosun ilkin etnik mənlik şüuruna yiyələnməklə tarix səhnəsinə çıxması qanun və qanunauyğunluqlarını çox obyektivcəsinə ifadə etmişdir.

İstər "Kitabi-Dədə Qorqud" dastanına və istərsə də tariximizin digər hadisələrinə münasibətdə yaxın vaxtlara kimi özüm üçün qəti aydınlaşdıra bilmirdim ki, bizim tarixçi, ədəbiyyatçı, dilçi, ümumiyyətlə ictimai elm nümayəndələri tariximizin mənəvi-sosial hadisələrini, elmi, siyasi şəxsiyyətlərimizi, ümumiyyətlə, tarixi hadisələri qəsdən, bilərəkdən, təhrif edirlər, həqiqət qarşısında susub onu deməkdən imtina edirlər, yoxsa savadsızlıqdan.

Misal üçün Ə.Abidə, Ə.Sultanlıya münasibətdə olduğu kimi; Azərbaycanın akademik tarixçilərinin vəhşi öküzün mövcudluğu haqqında "mülahizə"si və s. aşağıda görəcəklərimiz kimi.

"Kitabi-Dədə Qorqud" dastanının 2-3-cü nəsil tədqiqatçıları dastanın ilk alman tədqiqatçısı H.F.Ditsin "Kitabi-Dədə Qorqud" dastanının yunan şairi Homerin e. ə. VIII əsrdə yaratdığı "Odisseya" poemasına təsir etdiyini, yunan tsiklopunun oğuzların tsiklopunun təqlidi olmasını, ingilis qorqudşünası C.Lüisin "Kitabi-Dədə Qorqud" dastanları haqqında dediyi "Bu dastanların tarixi çox qədimdir. İslam tarixindən xeyli əvvəl yaranmışdır" elmi mülahizəsini dövrəyə gətirsələr də, bu mülahizələri qəbul və ya inkar etmələri haqqında heç bir mövqe bildirmirlər. Eyni ilə "Kitabi-Dədə Qorqud" dastanının yaranma tarixi haqqında Ə.Abidin "Azərbaycanlıların feodalizm dövründən əvvəl malik olduqları xalq ədəbiyyatı namına tapa bildiyim ən əski əsər "Oğuzname"dir. Oğuzların indiki vəziyyətə görə, Azərbaycan ədəbiyyatının ilk əsəri deməkdir" mülahizəsini diqqət mərkəzinə çəksələr də, bu fikrə münasibət bildirmirlər, nə təsdiq, nə də təkzib etmirlər. Göründüyü kimi, fikir çox aydın və birmənalı ifadə olunmuşdur. Azərbaycanda quldarlıq ictimai quruluşunun olmaması dünya tarixşünaslığında təsdiq olunmuşdur. Göründüyü kimi, Ə.Abid "Kitabi-Dədə Qorqud" dastanının ibtidai icma quruluşunda yaranması mövqeyindədir. O, bu qənaətini məntiqi bir mülahizə kimi ifadə etmir. "Dan ulduzu" jurnalının 1929-cu il 5-ci və 8-ci saylarında nəşr olunan "Türk el ədəbiyyatına elmi bir baxış" adlı məqaləsində oğuzların məişətinin dərin sosial-iqtisadi strukturlarının təhlili əsasında söyləmişdir. Ə.Abid bu məqalələrində ilk dəfə cəmiyyətin ictimai inkişaf səviyyəsini təsərrüfat mədəni tiplərin inkişaf səviyyəsinə görə müəyyən etmişdir. Onun bu məqalələrində təsərrüfat mədəni tiplər haqqında müddəası XX əsrin 60-cı illərində rus sovet etnoqraflarının elmi kəşfi kimi qiymətləndirildi.

Azərbaycan ictimai elm nümayəndələrinin müstəqillik illərində belə Ə.Abidin xalqımızı dünya elmində təmsil edəcək qədər böyük elmi müddəaları qarşısında susmaları səbəbləri mənim üçün yaxın vaxtlara qədər qaranlıq qaldı.

Ə.Abiddən sonra "Kitabi-Dədə Qorqud" dastanının yaranma tarixi, etnomənəvi, etnososial xarakter xüsusiyyətlərinə, insan cəmiyyətinin ilkin təşəkkül mərhələsində regionda etnomənəvi əlaqələrə və ona təsirinə elmi konseptual yanaşan alim-tədqiqatçı Ə.Sultanlıdır. O, dünya elminin ictimai inkişafın dərkinə yol göstərən ən mütərəqqi nəzəriyyələrini "Kitabi-Dədə Qorqud" dastanının tədqiqi və dərkinə tətbiq etmişdir. Onun 1946-cı ildə "Dədə Qorqud" və yunan eposları" adlı 11 səhifəlik bir məqaləsi nəşr olunmuşdur. 1957-ci ildə "Kitabi-Dədə Qorqud" dastanı Rus Kommunist rejimindən bərəət alandan sonra Ə.Sultanlı dastanın araşdırılmasında fədakarlıq göstərir, 1958-1959-cu illərdə onun ADU-nun "Elmi əsərləri"nin humanitar elmlər seriyasında beş məqaləsi nəşr olunmüşdur. O, dünyasını dəyişəndən sonra A.Zamanov və Y.Qarayev bu məqalələri 1971-ci ildə "Dədə Qorqud" dastanı haqqında qeydlər (məqalələr)" adı ilə kitab kimi nəşr etdirdilər. Bu kitab "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi münasibəti ilə "Kitabi-Dədə Qorqud" və qədim yunan dastanları (B., 1999) adı ilə təkrar nəşr edilmişdir. Ə.Sultanlının əsərinin təkrar nəşri istisna olunarsa "Kitabi-Dədə Qorqud" dastanının son nəsil tədqiqatları onun bu epos haqqında elmi mövqeyinə heç bir münasibət göstərmir, dastanın yaranma tarixi haqqındakı "Əsərin öz məzmunundan göründüyü kimi dastanın yaranması qəbilə (tayfa? X.X.) quruluşunun ən çiçəkli bir dövrünə təsadüf edir", mülahizəsindən isə qəti bəhs olunmur, sanki belə bir tədqiqatçı, belə bir mövqe olmayıb.

"Kitabi-Dədə Qorqud" dastanının yubileyindən əvvəl və yubiley zamanı dastanın müasir azərbaycanlı tədqiqatçıları eposun ilk avropalı tədqiqatçıları H.F.Dits, C.Lüisin və ilk azərbaycanlı tədqiqatçı Ə.Abidin, 40-50-ci illər tədqiqatçısı Ə.Sultanlının dastanın oğuzların ibtidai-icma inkişafı mərhələsində yaranması haqqında elmi mülahizələrinə heç bir münasibət bildirmədilər. Yubileydə əsas məqsəd dastanın obyektiv qiymətləndirməklə milli dəyərlərimizi, ideyalarımızı ilkin təməlində sağlamlaşdırmaqla milli ideologiyamızı ilkin təməlinə daha möhkəm bağlamaq idi. Bu, baş vermədi, çünki Azərbaycan tarix elminin səviyyəsi buna imkan vermir. Azərbaycan tarixşünaslığı hələ monopoliyasında olan yüksək rütbəli sovet tarixçilər vaxtı ilə yazdıqları cızmaqaralarını elm kimi qoruyub saxlamaq üçün az da olsa yaranan yeni ideyaların tarixşünaslığa daxil olmasına imkan vermirlər. Müasir Azərbaycan tarixşünaslığının elmi səviyyəyə yüksələ bilməməsi hələ çoxdan diqqəti çəkmişdir.

Bakı Dövlət Universitetinin tarix fakultəsinin müəllimi ("Məntiq" (2005) dərslərində Azərbaycan tarixşünaslığının elm adlandırılmasına etiraz etmişdir. AMEA-nın müxbir üzvü S.Xəlilov tarixin elm olmaması haqqında bir neçə əsərində mülahizələrə çıxış etmiş, nəhayət, "Fəlsəfə: tarix və müasirlik" (B., 2006) adlı iri həcmli monoqrafiya yazmışdır. Sətirlərin müəllifi "Azərbaycan türklərinin etnogenezi və milli inkişaf tarixi" (B., 2007) monoqrafiyasında yazır: "Sovet tarixşünaslığında elmdən danışsalar da, o, heç vaxt bütünlüklə elmi baxış səviyyəsinə yüksələ bilmədi. Çünki o, tarixə obyektiv elmi baxışla deyil, subyektiv siyasi məqsədlər güdən baxışlarla yanaşırdı. Odur ki, imperiyanın varlığı dövründə bu ölkədə tarix elmi tarixşünaslıq deyil, tez-tez dəyişən subyektiv konsepsiyalar yığını oldu", "Etnosun ilkin təşəkkül mərhələsi və terminologiyası" adlı məqalədə ("Müasir fəlsəfə: idrakın ən yeni istiqamətləri. B., 2014) son nəşr 7 cildlik "Azərbaycan tarixi"nin 1-ci cildinin konkret səhifələrini göstərərək yazdı: "Azərbaycanın akademik tarixçiləri bu elmin terminlərini bilmirlər". "Türk mənəviyyatı tarixində "Oğuz Xaqan" və "Kitabi-Dədə Qorqud" dastanları (B., 2015) adlı monoqrafiyasında yazdı: "Vəhşi öküzdən danışan, öküzlə buğanın fərqini bilməyən tarixçi akademikdən milli ruhu qidalandıracaq hər hansı fikir gözləmək nadanlıqdır". Ə.Abid və Ə.Sultanlının əsərlərinin elmi-nəzəri səviyyəsi ilə "Kitabi-Dədə Qorqud" dastanının 2-ci, 3-cü nəsil tədqiqatçılarının əsərlərini elmi-nəzəri səviyyəsi arasındakı fərq birmənalı deməyə əsas verir ki, bu nəslin intellektual səviyyəsi çox aşağıdır. Onlar Ə.Abid və Ə.Sultanlı yaradıcılığını təhlil gücünə malik deyillər", nəhayət, "Sovet tarixşünaslığı - milli ölüm elmi" (B., 2010) adlı monoqrafiya kommunist Rus imperiyasının sırf tarix elmi vasitəsi ilə millətləri məhvetmə siyasətinə həsr olunmuş, bu işdə xidməti olan azərbaycanlı akademik tarixçilərdən də bəhs olunmuşdur. Bütün bunlara Azərbaycanda tarix elminin cavabdeh müəssisə və şəxslərdən bir dənə də olsun cavab reaksiyası olmadı. Əlbəttə bunu çoxlu səbəblərlə də izah etmək olar. Ancaq əsas və başlıca səbəb tənqid-ittiham birbaşa ünvanlarına olan müəssisə və şəxslər arasında tarix elminin şərəfini qoruyacaq, bunun üçün açıq meydana, mətbuata çıxacaq, elmi polemika ilə deyilənləri təkzib edəcək tarixçinin olmamasıdır və s.

Yaxınlarda həmişə milli təəssübkeşliyi ilə fərqlənən fəlsəfə elmləri doktoru Z.Quluzadənin "Sosmədəni inkişafın tədqiqinin konseptual problemləri" (1-ci cild, B., 2009) əsərini oxuyarkən "Azərbaycan Tarix Qurumu" adlı təşkilatın olduğunu öyrəndim. Mən hər gün işə gələndə Tarix İnstitutunun 6-cı mərtəbəsindən, bu qurumun yanından keçib 7-ci mərtəbədə şöbəmizə gəlmişəm. Ancaq belə bir qurumun olmasından xəbərim olmayıb. Görünür elə qurumun fəallığı da mənimki qədər olub ki, bir-birimizdən xəbərimiz olmayıb. Qurumun nə zaman yarandığını bilmirəm. 2007-ci ilin iyunun 27-28-də Bakı şəhərində AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu ilə birlikdə "Tarixin metodoloji və aktual problemləri"nə həsr olunmuş bir elmi-nəzəri konfrans keçirilmişdir. Konfransın materialları "Tarix və gerçəklik" (B., 2007, 1-2-ci cild) adı altında nəşr olunmuşdur. Müsbət və tədqirəlayiq haldır ki, qurum çıxış yolu göstərə bilməsə də, Azərbaycanda tarix elminin yuxarıda bəhs etdiyimiz acınacaqlı vəziyyətini etiraf etmişdir.

Məruzənin bəzi hissələrini oxucuya çatdırmağı lazım bildik.

Məruzədə deyilir: "Bu gün demək olar ki, bütün postsovet ölkələrində tarixə yeni tərzdə yanaşırlar. Tarixə yeni yanaşma dedikdə ilk növbədə köhnə sovet konsepsiyalarını bir kənara atıb (yəni 70 il elmi konsepsiya adlandırdığımız və bu əsasda dediklərimizin yalan olduğu sübut olunub? X.X.) tarixi hadisələri milli maraqlar baxımından fikir süzgəcindən keçirib qiymətləndirmək başa düşülür. Bu, tamamilə doğru yanaşmadır" - Tamamilə yanlış yanaşmadır. Ayrı-ayrı tarixi dövrlərdə milli maraqlar fərqli və dəyişkən olur. Tarixin gələcəkdə istifadə olunacaq praktiki əhəmiyyətli təcrübəsi isə ayrı-ayrı maraqlar dövründə xalqın onu necə qiymətləndirməsi və ona qarşı necə hərəkət etməsindən ibarətdir. Qaldı ki, tarixçinin milli marağı, onun həqiqəti nə dərəcədə ifadə etməsi çox subyektivdir. Yazıların tarix o zaman elm olur və gələcək nəsillərə düzgün yol göstərir ki, o, həqiqəti ifadə edir.

(Davamı 6-cı səhifədə)

MİLLİ TARİX ELMİ MÜQƏDDƏSDİR,

ONU DƏRK ETMƏK ÜÇÜN Ə.ABİD, M.Ə.RƏSULZADƏ... MƏNİMSƏNİLMƏLİDİR

(Əvvəli 4-cü səhifədə)

Məruzədə sonra deyilir: "Gəlin etiraf edək ki, bu gün bizim çoxumuz (içərisində mən də daxil olmaqla) hətta təcrübəli alimlərimizi nəzərdə tuturam, yeni tarixi nəzəriyyələri və tarixi tədqiqat metodlarını zəif bilirik. Mənə etiraz edib deyə bilərlər ki, bu, yanlışdır və təcrübəli alimlərimizin nəzəri səviyyəsi yüksəkdir. Ola bilər ki, kimlərin isə bu sahədə yüksək hazırlığı var, ancaq tətbiq etmir, hətta öz aspirantlarını və dissertantlarını öyrətmir. Əks halda necə izah etmək olar ki, müdafiə olunan dissertasiyaların (doktorluq dissertasiyaları da daxil olmaqla) tədqiqatın metodoloji bazasına həsr olunmuş bölməsi ən kiçik və zəif bölmə (çox vaxt bir və ya iki şablon cümlədən ibarət) olur, bir yaxud iki tədqiqat metodunun adı çəkilir.

Məncə bizim tarix elminin yeni nəzəriyyələrlə zəif tanışlığı bununla izah olunur ki, təcrübəli, nisbətən yaşlı tarixçilərimiz Qərbi Avropa dillərini zəif bildiklərinə görə bu nəzəriyyələrlə yaxından tanış olmaq imkanına malik deyillər. Cavanlar isə nəzəriyyəyə az meyl edirlər. Həm də əcnəbi dil bilən cavan tarixçilərin çoxusu yüksək məvacib dalınca firmalara işə girirlər". Etiraf üçün təşəkkür edirik. Kiçicik əlavəmiz var: "Tarixçilərimizin "yeni nəzəriyyələri və tarixi tədqiqat metodları" zəif bilməsi deyilir. Belə çıxır ki, əvvəllər sovet dönəmində tarixçilərimiz elmi nəzəriyyələrdən və tarixi tədqiqat metodlarından gen-bol istifadə etmişlər. Həqiqətdə isə bu dövrdə marksizm istisna olmaqla hər hansı nəzəriyyədən istifadə olunmamışdır. Məruzəçi yaşlı nəslin artıq nəzəriyyə öyrənmək "imkanına malik olmadığını" yazır, bu imkana malik cavanların isə nəzəriyyəyə az meyl etməməsindən və yüksək məvacib ardınca getdiklərini yazır. "Yeni nəzəriyyələrlə tanış olmaq imkanına malik olmayaraq" tariximizi, yeni elmi nəzəriyyə və metodlarla yazmaq imkanına malik olmayan "tarixçilər" nəyə görə Azərbaycan tarix elmi sahəsində yüksək vəzifələr tutur, ardıcıl yeni-yeni rütbələrə və təltiflərə layiq görülürlər? İstedadlı gənclərin axtarılıb tapılması və onlara qayğı göstərilməsindən bəhs olunmur. Bu məruzəçinin istedadlı, cavan bir xanımı elmə gətirməsi və onun qayğısı sayəsində qısa vaxtda misilsiz nailiyyətlər qazandığının, tariximizin qaranlıq səhifələrini necə işıqlandırmasının şahidiyəm. Düzdür, bizdə ayrı-ayrı adamların övladlarının sürətlə elmi dərəcə alması üçün kifayət qədər qayğı və himayə olunması halları məlumdur. Lakin istedadlılara qayğı demək olar ki, yox dərəcəsindədir.

Məruzədə tarixi tədqiqatın formasion və sivilizasion olmaqla iki modelindən bəhs edilir. SSRİ-də kommunizm quruculuğu dövründə marksizmin ünvanına deyilmiş fikirləri yenidən dövrəyə gətirərək marksizmin formasion nəzəriyyəsini obyektiv, universal, bütün bəşəriyyətin obyektiv dərki üçün düzgün nəzəriyyə hesab edir. Lakin bunun ardınca yazır: "SSRİ-nin dağılması və dünya sosializm sisteminin dağılması ilə ölkəmizdə hökmran olan marksist - leninçi ideologiya və onun bir hissəsi olan tarixi tədqiqatın marksist metodologiyası da yoxa çıxmışdır". Görünür, məruzəçi məhz marksizm - leninizm ideologiyasının ölməsi ilə SSRİ-nin və sosializm sisteminin dağılması, marksist metodologiyasının yoxa çıxması səbəbini başa düşməmişdir. Məruzəçi marksizm haqqında sovet tarixşünaslığında kommunizm quruculuğu dövründə yazılmış fikirləri yenidən dövrəyə gətirməklə bərabər yeni çox ziddiyyətli mülahizələr irəli sürərək yazır: "Məlumdur ki, XX əsrdə bir çox qərb və şərq ölkələrində Marks və Engelsin yaratdığı tarixi materializm tarixi dərk etmək üçün açar rolunu oynamışdır". Əcəba, tarixin qanunları dəyişdimi, bu açar niyə XXI əsr tarix qanunlarının qapısını aça bilmir? Əlavə polemikaya ehtiyac görmürəm. Məruzəçinin yazdığı "Sosial-iqtisadi formasiyalar nəzəriyyəsi K.Marksın və F.Engelsin XIX əsrin 40-cı illərindən başlayaraq insanın və tarixi prosesin idealistcəsinə dərk olunmasına qarşı apardıqları mübarizənin təbii nəticəsi idi. O zaman "gənc hegelçilər" və digər idealistlər tarixi "ruhun inkişafı və özünü dərk etməsi" kimi anlayırdılar. Bunun əksinə olaraq tarixin materialistcəsinə dərk olunması elmi təfəkkürün böyük uğuru idi". Məruzəçinin sovet dönəmindən qalan bu fikri təkrarlaması onun fəlsəfə və ictimai elmlərdəki yeniliklərlə, Hegelin "Ruh fəlsəfəsi"nin fəlsəfə və psixologiyada birmənalı qəbul edilməsindən məlumatsız olduğunu göstərir.

Məruzəçi yazır: "Cəmiyyət haqqında marksist təsəvvürlərinin mühüm cəhətləri ümümdünya tarixi prosesin vəhdəti və onun universallığıdır. Cəmiyyətdə obyektiv qanunlar fəaliyyət göstərir, onları nəinki dərk etmək mümkündür, həm də zəruridir. Marksizm nəzəriyyəsinin tərəfdarları öz diqqətlərini obyektiv və qanunauyğunluğunun öyrənilməsinə cəmləyirlər. Bəşəriyyətin inkişafının məhz bu ümumi qanunları dünyanın vəhdətini təmin edir".

Doğrudanmı bu fikirləri yazarkən məruzəçi dünyada nə qədər xalqın quldarlığı keçmədən, ibtidai icmadan feodalizmə keçdiyini, formasiya kimi proletariat vasitəsi ilə zorla dünyanın bir neçə xalqına yaşamağa məcbur edildiyi sosializmin məhvi ilə onun utopiya olduğu, formasiya olduğunun üstündən xətt çəkildiyini göz önünə gətirə bilmir?

Məruzəçi bunun ardınca yazır: "Postsovet məkanında yaşayan tarixçilərin, o cümlədən də, Azərbaycan tarixçilərinin əksəriyyəti tarixi materializm metodologiyasından xilas olmuş və ya xilas olmaq istəyirlər. Buna görə də yeni daha düzgün metodologiya axtarışı gedir". Məruzəçini anlamaq olmur, birinci abzasda - marksizmin obyektiv inkişaf qanunlarını ehtiva etməklə dünyanın vəhdətini təmin etməsini iddia edirsə, ikinci abzasda tarixçilərin bu nəzəriyyədən xilas olmağa çalışdığını, yeni, daha düzgün metodologiya axtarışında olduğunu yazır. Yüz səksən dərəcə ziddiyyət təşkil edən mülahizələrdir.

Hörmətli məruzəçi dostuma xatırlatmaq istəyirəm ki, marksizm - onun nə materializmi, nə də elmi sosializm nəzəriyyəsi yaranışdan nə elm, nə də fəlsəfə olmuşdur. K.Marks sosialist ideologiyası vasitəsi ilə siyasi məqsədlərini həyata keçirmək istəyirdi. Sosialist ideologiyası sürətlə Avropanı əğuşuna alır, onun tezliklə ölkədə faciələr yaradacağı aydın görünürdü. Başda böyük fransız mütəfəkkiri Qustav Le Bon olmaqla Avropa mütəfəkkirləri, dövlət və siyasi xadimləri bəşəriyyəti və Avropanı sosialist təhlükəsindən xilas etmək üçün, onun doğuracağı dağıntı və faciələri kütləyə praktiki nümayiş etdirmək məqsədilə onu Rusiyada həyata keçirməyə qərar verdilər. Təsadüfi deyil ki, Oktyabr çevrilişi zamanı Qustav Le Bonun "Kütlə psixologiyası" əsəri dahi V.İ.Leninin stolüstü kitabı idi. Beləliklə, K.Marksın utopiyadan elmə çevirmək iddiasında olduğu proletar muzdur təfəkkürü üçün yaradılmış materializmi və sosializmi Rusiyada nümayiş etdirildi və tarixə gömüldü.

Fəlsəfi nəzəriyyələr olan neopozitivizm, ekzistensializm və germenavtika, praqmatizm, fenomenologiya və strukturalizm, poststrukturalizm, tarixi-mədəni relyativizm məktəbi və müasir dini fəlsəfə, neokantizm və postmodernizm" tarixi tədqiqatın metodoloji əsaslarını təşkil etməsini yazsa da, məruzəçi o qədər ümidsizdir ki, sanki bu vətən - bəşəriyyətin ilk zəka günəşi Zərdüşt - od fəlsəfəsini, maqları, Bəhmənyarı, N.Tusini, A.A.Bakıxanovu, S.C.Əfqanini, M.Ə.Rəsulzadəni və b. onlarla bəşəri zəka işığı yetişdirməmişdir.

Məyuscasına sözünə davam edən məruzəçi yazır: "Lakin bu gün nəinki dünya tarixçilərinin, eləcə də, bir ölkənin tarixçilərinin baxışları heç də eyni deyil. Bu da ondan irəli gəlir ki, qərb ölkələrində meydana gəlmiş tarixi nəzəriyyələrin heç biri mükəmməl deyil və heç də hər zaman tədqiqatçıya qarşıya çıxan suallara cavab verməkdə kömək edə bilmir.

Bəs necə etməli? Burada bir çıxış yolu var. Ən çox dəyərli nəzəriyyələri öyrənmək və uyğun gəldiyi yerdə onları tətbiq etmək. Əgər elə bir təzahür meydana çıxır ki, onu heç bir nəzəriyyə və baxışla izah etmək olmur, onda tarixçi sadəcə sağlam mühakimə əsasında nəticə çıxarmalıdır". Məruzəçimiz qətiyyət göstərib "sağlam mühakimə əsasında nəticə çıxarmalıdır" desə də, deyəsən bu mülahizələrində də intuitiv olaraq məyusluğa düçar olacağını əvvəlcədən hiss etmişdir. "Sağlam mühakimə" metodundan Avropanın qabaqcıl filosofları istifadə etmiş, C.Rid, U.Cems, C.Brekli, C.E.Mur və başqaları ondan bəhrələnmişlər. U.Cems sağlam fikri "binanın vestibülü", yəni elm və fəlsəfə məbədinin giriş qapısı - onlara aparan yolun başlanğıcı kimi qiymətləndirir. Məlumdur ki, binaya aparan yollar vestibüldən keçsə də, o, binanın özü deyil. "Sağlam fikrin elə məziyyətləri var ki, onlar onun fəlsəfə tərəfindən ideal kimi götürülməsinə imkan vermir. Əvvələn, onu nəzərə almaq lazımdır ki, sağlam fikir sırf praktik texnika kimi nəzəriləşdirilmir, fəlsəfə və elm səviyyəsinə yüksəlmir və yüksələ də bilməz. o, ancaq praktik zəkaya, dərrəkəya əsaslanır və zəkanın yaradıcılığından, onun qoyduğu və həll etməyə çalışdığı problemlərdən baş çıxarmaq iqidarında deyildir... yəni fəlsəfə, elm sağlam fikri rədd etməsə də, onlar heç vaxt onun səviyyəsinə enməmiş və ənə də bilməz, burada söhbət bu təfəkkür formalarının üzərində dayandığı prinsiplərdən, əsaslardan gedir. Fəlsəfə və elmi yaradan dahilik zirvəsi - sağlam fikir üçün terra incoqnitadır". "Sağlam fikir həyatın kortəbii şəkildə müəyyən etdiyi fikir axınından kənara çıxa bilmir, fəlsəfə isə məhz bu axını pozmaq, hətta onun əleyhinə gedən yolla gedir. Sağlam fikir ancaq zahiriliklə kifayətlənir və öz fikrini abstrakdan konkretə yüksəldə bilmir" (F.İsmayılov. Müqəddəs, od və yaxud fəlsəfənin fəlsəfəsi. B.,2015, s.42-45. Seçilmiş əsərləri, II(2), s. 3-59).

Nəhayət ki, biz Azərbaycan tarixşünaslığında, çox yüksək rütbəli alimlərin rəyi ilə hazırlanan, beynəlxalq konfransa çıxarılan elmi məruzədə tarixin elm olmaması haqqında fikirlərə münasibət göstərildiyinin şahidi oluruq. Bu haqda məruzəçi yazır: "Tarixin bir elm kimi tanınması problemi də metodologiya məsələlərinin aktuallığını gücləndirir. Bir çox alimlər iddia edirlər ki, tarix elm olmaqdan daha çox incəsənətdir. Yəqin elə bunun nəticəsidir ki, ayrı elmin nümayəndəsi və ya hər hansı yerindən qalxan tarixlə demək olar ki, məşğul olmadan özünü tarixçi elan edir və "tarixi əsər" ortaya qoyur. Tarixin elm olmaması müddəası ilə əlbəttə ki, razılaşmaq olmaz. Tarix elmdir, ancaq xüsusi növ elmdir. O, təbiət elmlərindən xeyli fərqlənir. Tarix spesifik tədqiqat predmeti və tarixi reallığı dərketmə üsulları var. Bu isə tarix elminin metodoloji bazasının gücləndirilməsini tələb edir...

Tarix elm kimi öz spesifik tədqiqat predmetinə bilik qurulması sisteminə malikdir. Hətta, nəbələd müşahidəçi görə bilər ki, tarixdə, məsələn, fizikadan fərqli olaraq:

1) təbiəti deyil, insanların həyatını öyrənir;

2) riyaziləşmiş nəzəriyyə yoxdur;

3) adətən obyektiv reallığın qanunlarına deyil, sağlam mühakiməyə əsaslanırlar;

4) materialı sadə nəqli dillə ifadə edirlər;

5) subyektivizm və qərəzçilik var və s.

Elə buradaca məruzənin şərhini dayandırırıq, tarixin tədqiqat metodu "obyektiv reallığın qanunlarına deyil, sağlam mühakiməyə əsaslandığı" iddia olunan məruzənin digər bəndlərinin şərhlərinə lüzum görmürəm. Yuxarıdan göründüyü kimi, məruzəçi "tarix elmdir, ancaq xüsusi növ elmdir" desə də, bu xüsusiyyətin nədən ibarət olmasını göstərə bilmir, "tarixin spesifik tədqiqat predmeti və tarixi reallığı dərketmə üsulları var" desə də, bu spesifik predmetin nədən ibarət olmasını deyə bilmir, tarixi reallığın dərketmə üsulu kimi yalnız obyektiv reallığın qanunları deyil, sağlam mühakimə olduğu əsas götürülür.

Bəli, XXI əsrdə, paytaxtı Bakı və bütün kənd və şəhərləri Şəhidlər məzarıstanına çevrilməklə müstəqilliyini qazanan bir xalqın tarixi dərketmə metodu, nə qədər utandırıcı və xəcalətverici, ən təhlükəlisi isə bu fikri oxuyan düşmənlərimiz xalqımıza yuxarıdan baxacaq, onu aşağılayacaq, ona öz iddialarını qəbul etdirmək iddiasına düşəcək, necə ki, düşüb.

Hörmətli oxucu, sətirlərin müəllifinin "Sovet tarixşünaslığı - milli ölüm elmi" (B., 2010) adlı monoqrafiyası məhz bu mövzuya həsr olunmuşdur. Kommunist Rus imperiyasının Azərbaycanda tarix elmini və tarixçi zümrəni saldığı vəziyyət faktlarla izah olunur, bu bu dövr tarixşünaslığının "elm" adlanmasının manipulyasiya olduğu, sovet tarixçi nəslinin tarix elminin qanun və qanunauyğunluqlarını mənimsəyə bilmədiklərindən çoxluq təşkil etdiklərindən tarix elminə gələn istedadları boğmaqla, bəşəri ideyaların tariximizə daxil olmasına, hətta öz əcdadlarımızın yaratdığı bəşəri ideyaların tarix elminə daxil olmasının qarşısını alaraq "alim" kimi mövqelərini qoruyub saxlayırlar ki, bu da millətimizin gələcəyə gedən yolunda ciddi maneədir. Milli inkişafda tarix elminin əvəzedilməz funksiya və vəzifələrini nəzərə alaraq Respublika rəhbərliyinə təklif etdim:

a) tarixi saxtalaşdırmağa qarşı Cinayət Məcəlləsinə xüsusi maddə əlavə edilsin;

b) xalqımızın tarixini saxtalaşdırmaqla elmi rütbə almış və fəxri adlar verilmiş şəxslərin elmi rütbələri və fəxri adları ləğv edilsin;

c) bilərəkdən tarixi saxtalaşdıranlar cinayət məsuliyyətinə cəlb edilsinlər;

ç) milli tariximizin tədqiqinin elmi səviyyəyə yüksəldilməsi üçün "İctimai-elmi nəzarət Şurası" yaradılsın".

"Azərbaycan Tarix Qurumu"nun beynəlxalq elmi konfransdakı məruzəsi təsdiq edir ki, təkliflərimizdə bütünlüklə haqlıyıq.

XXI əsrdə dünyada, hətta Afrikanın cəngəlliklərində tarixin dərki "Obyektiv reallığın qorunması ilə deyil, sağlam mühakiməyə əsaslanmalıdır" düşüncəsində olan bir xalq təəssüf etmirəm. Bir də nəzərə almaq lazımdır ki, bu mülahizə bir məruzəçinin ideyası deyil, "Tarixin metodoloji və aktual problemləri" beynəlxalq konfransının təşkilatçıları və rəhbərləri Azərbaycanın ən yüksək rütbəli və tarix elminə rəhbərlik edən Redaksiya Şurasının fikir süzgəcindən keçən bir ideyadır. Milli və intellektual inkişafımızın obyektiv reallığını dərk etmək üçün Azərbaycan xalqının XII əsr tarixin dərki ideyası ilə müqayisə edək. XII əsrdə:

Qüvvət elmdədir, başqa cür heç kəs

Heç kəsə üstünlük eyləyə bilməz - ideyası ilə gələcəyə yönəldilən Azərbaycan xalqı XXI əsrdə tarixin dərkini elmdə - "obyektiv reallığın qanunları ilə deyil, sağlam mühakiməyə əsaslanmalıdır" ideyası ilə istiqamətləndirilir.

İdealistlərin deyimi ilə Mütləq Ruhun təkanı, materialistlərin anlayışı ilə "Böyük Partlayış"ın təsiri ilə 13,7 milyard il bundan əvvəl müasir kainat yarandı. Kainatda bu çağdan təkamül, dəyişmə və inkişaf prosesində vahid varlığın yeni-yeni formaları yaranır ki, bu proses zaman etibarı ilə tarix adlanır.

(Davamı var)